

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 163 (23.325)

3 sentyabr 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 1991-ci il 3 sentyabr: Naxçıvandan başlanan müstəqillik yolu



***Xalqın, millətin taleyində dahi şəxsiyyətlərin, siyasi liderlərin müstəsna rolu vardır. Məhz həmin şəxsiyyətlər xilaskarlıq missiyasını uğurla həyata keçirmiş, zamanın tələblərini və obyektiv inkişaf tendensiyalarını vaxtında dərk edərək milli maraqları təmin etmiş, müdrik ideyaları millətin strateji inkişaf konsepsiyasına çevirərək onun dünya miqyasında özünəməxsus yer tutmasına yol açmışdır. Azərbaycan xalqının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev də dahi lider kimi insanları öz ideya və baxışları ətrafında toplamış, zəngin təcrübəsi sayəsində idarəçilikdə ciddi uğurlara imza atmış, cəmiyyətin maraq və mənafelərini müdafiə etdiyi üçün xalqın dərin etimadını qazanmışdır.***

Görkəmli dövlət xadiminin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ali Məclisin Sədri seçilməsi də Azərbaycanın müstəqillik yolunun əsasını qoymuşdur.

***"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götürqoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm"***, – deyən dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas etmiş, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atmışdır. Görkəmli dövlət xadiminin qədim diyardan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməsinə meydan açmışdır. Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə demişdir: ***"Tale ulu öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı..."***

Fenomen şəxsiyyət Naxçıvanda Milli Qurtuluşun, milli dövlətçilik quruculuğunun təməllərini özünün zəngin təcrübəsinə və Naxçıvanda daim yaşadılan qədim Azərbaycan dövlətçilik ənənələrinə əsaslanaraq atmışdır. Bu da təsadüfi deyildi. Çünki ulu öndər uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş, dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovetlər İttifaqının aparıcı dövlət xadimlərindən biri olmuş, bütün bunlarla yanaşı, Azərbaycanın qədim dövlətçilik ənənələrinə dərindən bələd olmuş, milli ideologiyanın əsasını qoymuş, milli maraqlarımızın məğlubedilməz müdafiəçisinə çevrilmişdir. Təsadüfi deyil ki, 1969-cu ilin iyul ayının 14-də Azərbaycan rəhbərliyinə gələn görkəmli dövlət xadimi ölkəmizdə müqayisəolunmaz bir inkişaf mərhələsinin əsasını qoymuş, respublikamızı müstəqilliyə hazırlayacaq bir sıra əhəmiyyətli iqtisadi, siyasi, ideoloji addımlar atmışdır. Bu mərhələdə xalqımızın böyük oğlu əsl dövlət xadimi kimi özünəməxsus idarəçilik fəlsəfəsinin əsas konturlarını müəyyənləşdirmişdir. Dahi öndəri dövlət rəhbərindən ali səviyyəli dövlət xadimi səviyyəsinə qaldıran da məhz bu idarəçilik fəlsəfəsi olmuşdur. Heydər Əliyev idarəçilik fəlsəfəsinin əsasını, ideya-siyasi istiqamətini xalqın tarixi yaddaşının bərpası, sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi kimi mühüm amillər təşkil edir.

XX əsrin sonlarına doğru Sovet İttifaqı kimi nəhəng imperiyanın süquta uğraması ictimai-siyasi vəziyyəti daha da ağırlaşdırmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı da uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac verilmişdi. Ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. Yaranmış boşluqdan istifadə edən Ermənistan siyasi və hərbi təzyiqlərini getdikcə artırırdı. Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvan əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, muxtar respublikanın ərazi bütövlüyünü qorumaq üçün mərdliklə mübarizə aparırdı. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda ulu öndərimiz Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Azərbaycan Respublikasının Ali Sovetinə və muxtar respublikanın Ali Məclisinə deputat seçilməsi xalq arasında ölkənin gələcəyinə inamı gücləndirmişdi.

Naxçıvan parlamentinin yeni tərkibdə 1990-cı il noyabrın 17-də keçirilən ilk sessiyası deputatların istəyi və böyük təkidi nəticəsində ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə öz işinə başlamışdı. Sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı. Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən demişdir: ***"O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. ...O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür".***

Görkəmli dövlət xadiminin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi isə Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə, eyni zamanda təcrübəli bir dövlət xadiminin dövlət idarəçiliyinə möhtəşəm dönüşü idi. Qarşıda duran əsas vəzifə isə sərhədlərinin böyük bir hissəsi boyunca düşmən hücumlarının hədəfinə çevrilmiş Naxçıvanı işğal təhlükəsindən xilas etmək idi. Buna görə də Türk dünyasının böyük oğlu Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanılması təmin olunmuşdur. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradılmış, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırılmış, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası ilk dəfə məhz Naxçıvanda qoyulmuşdur.

Mühüm geostrateji ərazidə yerləşən Naxçıvan Muxtar Respublikasının Türkiyə və İranla çoxəsrlik qonşuluq əlaqələrinin bərpası uzun illərdən sonra ilk dəfə ümummilli liderin Naxçıvanda fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Görkəmli dövlət xadimi 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etmiş, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmış, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdur. Bunun nəticəsində qısa müddətdə Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilmiş, Sədərək, Culfa və Şahtaxtı gömrük-keçid məntəqələri fəaliyyətə başlamışdır.

Ulu öndərin Ali Məclisin Sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi və 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir. Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də ümummilli liderimizin diqqət mərkəzində olmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur. 1992-ci il noyabrın 21-də isə respublikanın müxtəlif bölgələrindən gələn 550-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdi.

Yuxarıda da qeyd etdiyimiz kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir. Bu elə bir məktəb idi ki, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafın istiqamətləri məhz burada müəyyənləşdirilmişdir.

Həmin illərdə hakimiyyətdə olan səriştəsiz, bacarıqsız təsadüfi şəxslərin əməlləri nəticəsində 1993-cü il iyun ayının əvvəllərində respublikada gərgin ictimai-siyasi vəziyyət yarandı. Hadisələr kulminasiya nöqtəsinə çatdı, silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni öz ənginə aldı. Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ümummilli liderimiz Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi, onun nicatı uğrunda siyasi mücadiləyə başladı və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu.

Dahi siyasətçi qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı. Sevindirici haldır ki, bu gün ulu öndərimizin siyasi xətti dövlət başçısı tərəfindən uğurla davam etdirilir, Azərbaycan gündən-günə inkişaf edir, beynəlxalq aləmdə mövqelərini daha da gücləndirir, yeni-yeni nailiyyətlərə imza atır.

Heydər Əliyev siyasi xəttinə sədaqət nümunəsi olan Naxçıvan Muxtar Respublikası da bu gün dinamik şəkildə inkişaf edir, Azərbaycanın sürətlə tərəqqi edən diyarı kimi şöhrət qazanır. İndi Naxçıvanın çox böyük dayanıqlı iqtisadiyyatı, güclü müdafiə potensialı var. Ötən illərdə muxtar respublikamız ölkəmizin ərazi bütövlüyünün qorunub daha da möhkəmləndirilməsinə, milli dövlətçiliyin inkişaf etdirilməsinə, quruculuq proseslərinin genişləndirilməsinə öz töhfələrini verib. Bu gün mühüm enerji potensialı olan Naxçıvan, həm də dünyaya əsrarəngiz turizm imkanlarına malik olan bir diyar kimi qapılarını açır. Ağır blokada vəziyyətində inkişafa, yüksəlişə aparan yolun əsası isə 3 sentyabr 1991-ci ildə qoyulmuşdur.

**"Şərq qapısı"**

# Muzey ziyarətləri davam edir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib:* ***“Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. ...Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunub. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.

Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, Nazirlər Kabinetinin, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri Naxçıvan Biznes Mərkəzində olublar.

Məlumat verilib ki, 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya mərkəzi kimi yaradılan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirib. 2013-cü ildən isə yeni bina ilə təmin olunan mərkəz üçün müasir tələblərə uyğun lazımi iş şəraiti yaradılıb. Qeyd olunub ki, əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes planların hazırlanmasında metodoloji dəstək göstərilməsi olan Naxçıvan Biznes Mərkəzində 96 müəssisə tərəfindən 192 növdə 1250-dən çox çeşiddə məhsul sərgilənir. Həmçinin burada yerli ailə təsərrüfatlarında istehsal olunan məhsullar, ayrı-ayrı sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal və xidmət müəssisələrinin xəritəsi nümayiş etdirilir.

Qeyd edək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin kollektivi Xatirə Muzeyini, Səhiyyə Nazirliyinin əməkdaşları Qarabağlar Türbə Kompleksini, Mədəniyyət Nazirliyinin kollektivi “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Gənclər və İdman Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyini, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma altında Muzey Kompleksini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivi Ədəbiyyat Muzeyini ziyarət ediblər. Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, Televiziya və Radio Şurası və “Şərq qapısı” qəzeti redaksiyasının əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyində, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi Dövlət Bayrağı Muzeyində, Dövlət Statistika Komitəsinin əməkdaşları Heydər Əliyev Muzeyində, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin kollektivi Bəhruz Kəngərli Muzeyində, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları Nəbatat bağında, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin kollektivi Naxçıvan Dövlət Rəsm Qalereyasında, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində olublar.

✍ **Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində “Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestrinin aparılması” mövzusunda qısamüddətli təlim keçirilib.*

# Ünvan reyestrinin aparılması ilə bağlı təlim

Tədbiri komitənin sədri Müslüm Cabbarzadə açıb. O, rayon (şəhər) idarələrinin əməkdaşları üçün keçirilən bu təlimin ünvan reyestrinin aparılması sahəsində biliklərinin daha da təkmilləşdirilməsinə xidmət etdiyini vurğulayıb.

Daşınmaz əmlak məsələləri şöbəsinin müdiri Əkbər Əliyev ünvan reyestrinin aparılması sahəsində komitənin rayon (şəhər) idarələrinin qarşısında duran vəzifələrdən bəhs edib.

Ünvan reyestrinin aparılması sektorunun müdiri Ruslan Həsənov daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestrinin aparılması ilə bağlı əyani vasitələrlə təlim iştirakçılarına geniş məlumat verib. Nəqliyyat infrastrukturu obyektlərinin ünvanla bağlı məkan göstəricilərinin təyini, ünvan nömrələrinin verilməsi zamanı əsas prinsiplər, bir ünvan nömrəsi almış torpaq sahəsi üzərində birdən çox girişi olan binanın tikildiyi hallarda girişlərin, həmçinin nizamsız düzülmüş binaların nömrələnməsi, ünvan lövhələrinin quraşdırılmasına qoyulan tələblər nümunələrlə təlim iştirakçılarının diqqətinə çatdırılıb.

Sonra suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Səmti müəyyənetmə birinciliyi keçirilib



Naxçıvan Qarnizonu qoşunları üzrə hərbi qulluqçular arasında keçirilən yarışdan əvvəl Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini iştirakçılara çatdıraraq komandalara uğurlar arzulayıb.

Sonra 15 komandadan 60 hərbi qulluqçunun gücünü sınadığı birinciliyə start verilib. Gərgin mübarizə şəraitində keçən birinciliyin şərtlərinə əsasən hərbi qulluqçular 8 kilometr məsafədə 10 nöqtəni aşkar ediblər. Yarışın keçirilməsində məqsəd hərbi qulluqçuların kompas və xəritədən istifadə etməklə səmti müəyyənetmə vərdişlərini təkmilləşdirmək, dözümlülüklərini yoxlamaq və ən bacarıqlı idmançıları müəyyən etmək olub.

Səmti müəyyənetmə yarışında komanda hesabında 1-ci yerdə xüsusi təyinatlı birləşmənin, 2-ci yerdə tank hissəsinin, 3-cü yerdə isə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının komandası qərarlaşıb.

Fərdi hesabda isə 1-ci yerə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Mahir İbrahimov, 2-ci yerə gizir Kamran Mustafazadə, 3-cü yerə gizir Məhəmməd Rüstəmov layiq görülüb. İlk üçlükdə yer alan idmançı və komandalar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

**Nəriman NƏCƏFOV**

*Yeniləşən kəndlərimiz*

# Qədimliyi müasirliyə qovuşan ucqar dağ kəndi

# Ərəfsə



*Odlar yurdu Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan olduqca əlverişli coğrafi şəraitdə yerləşir. Bu il muxtariyyət əldə etməsinin 95 illiyini qeyd edən bu qədim torpaq təcavüzkar və xain qonşularımız ermənilərin blokadası şəraitində yaşamasına baxmayaraq, sürətlə inkişaf edir, şəhər və kəndlərimiz müasirləşərək gözəlləşir, insanların doğma yurda bağlılığı artır.*

Bu gün muxtar respublikamızın bölgələrində aparılan tikinti-quruculuq işləri həyat ritminə çevrilib. Bu mənada, Culfa rayonunda da son illər xeyli quruculuq, abadlıq işləri həyata keçirilib, parklar salınıb, yollar çəkilib, tarixi-memarlıq abidələrimiz bərpa olunub, yaşıllıq zolaqları yaradılıb və həmin tədbirlər sürətlə davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bölgələrin inkişafına, abadlaşdırılmasına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, son illər Culfa şəhərində köhnə binaların əsaslı təmir olunması, yaradılan yeni infrastruktur, bir-birindən gözəl istehsal və xidmət sahələri insanların rahat yaşamasına xidmət edir.

Diqqətçəkən amillərdən biri də budur ki, Culfa şəhəri ilə yanaşı, onun ucqar kəndləri də günü-gündən müasirləşir, abad və yaraşıqlı ünvanlara çevrilir. Rayonun abad yaşayış məntəqələri sırasına ucqar dağ kəndi Ərəfsə də daxildir. Yaşıllıqlar qoynunda yerləşən, qədimliyi müasirliyə qovuşan Ərəfsə kəndinin gözəlliklərini, həyat ahəngini qələmə almaq arzusu ilə yolumuzu bu qədim yurd yerinə saldıq. Aran yerlərdə isti olmasına baxmayaraq, yuxarılara qalxdıqca sərin meh qəlbimizə dolur, könlümüzü oxşayırdı. Əlincə çayı boyunca sıralanan palıd, söyüd, armud, cəviz, badam ağacları bir-birini arxada qoyur. Gül-çiçəyin ətrində gözəlliyə qərq olmuş Ərəfsəyə çatırıq.

Günəşin işığında gümüş kimi parıldayan Əlincə çayı həzin-həzin oxuyur, sanki kəndə layla çalır. Gözyaşıtək dumduru, üzük qaşıtək şəffaf, parlaq suyu buz kimidir.

Bu torpağın gözəlliyindən ilham alan qaynar təbli şair övladları mərhum Əhliman Ərəfsəli, Təbəssüm Hacıyeva ruhlarından süzülüb gələn sözləri cilalayıb ilmə-ilmə misralara düzəndə çox güman ki, bu gözəlliklərdən bəhrələniblər:

*Gömgöy meşəli, yaşıl bağları,*
*Uca çinarları, gözəl şamları,*
*Dərdlərə dərmandır bütün otları*
*Yurduma gözəllik verəndi kəndim,*
*Güllü-gülüstana dönəndi kəndim.*

*Gözəl bağlarının dadlı meyvəsi,*
*Axar çaylarının o həzin səsi,*
*Şirin sularının öz zümzüməsi*
*Yurduma gözəllik verəndi kəndim,*
*Güllü-gülüstana dönəndi kəndim.*

Ərəfsə münbit torpağı, əlverişli iqlimi, bağlı-bağatlı meyvə bağları, dadlı-bərəkətli tərəvəz bitkiləri, özünün nadir dərman otları, gül-çiçək ətirli balı ilə tanınır. 177 hektar ərazini əhatə edən bu dağ kəndində 250 təsərrüfat var, əhalinin sayı isə 890 nəfərdir.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatlar bu kənddə də uğurla həyata keçirilib və öz bəhrəsini verməkdədir. Dövlət qayğısı artdıqca Ərəfsənin təsərrüfat adamları daha çox torpağa bağlanır, öhdəliklərinə düşən həyətyanı və pay torpaqlarının qədrini bilir, təsərrüfatlarını genişləndirir, torpağı əkib-becərməklə özlərinə xoş gün-güzəran qururlar. Torpağa əyilən, yaxşı rifahı təsərrüfatda tapan Ərəfsənin zəhmətkeş insanları torpaqdan dürlü-dürlü bol nemətlər əldə edirlər.



Kənddə hər tərəfdən aydın görünən və xüsusi görkəmi ilə seçilən, müasir memarlıq üslubunda tikilmiş ikimərtəbəli məktəb binası diqqətimi cəlb edir. 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə tikilib istifadəyə verilmiş geniş idman zalı, fənn kabinələri, laboratoriyası, elektron lövhəli sinfi, zəngin kitabxanası olan 225 şagird yerlik məktəb binası bu yurd yerində təhsilimizin inkişafına dövlət qayğısının bariz nümunəsidir.

2008-ci ildə kənd əhalisinin sağlamlığının qayğısına qalmaq, ana və uşaqların müayinə olunması, uşaqlarda peyvəndlərin vaxtında aparılması üçün ambulatoriya binası da tikilib, burada hərtərəfli şərait yaradılıb.

Kəndin inzibati ərazi dairəsi üzrə nümayəndəsi Zamiq Əliyevlə söhbətimizdən aydın oldu ki, kənd əhalisinin əsas məşğuliyyəti tərəvəzçilik, bağçılıq, heyvandarlıq və arıçılıqdır. Heyvandarlığa gəlirli sahə kimi baxan kəndin təsərrüfat adamlarından Rafiq Nəcəfov, Məhərrəm Əliyev, Cəlil Hacıyev qoyunçuluqla, Elxan Kərimov, Şahsuvar Bayramov, Hicran Hacıyev və başqaları isə maldarlıqla məşğuldurlar. Burada ilin bütün fəsillərində pendir, qaymaq, xama, nehrə yağı, şor, qatıq tapmaq olar.

Bu yerlərin yaşıllığı, gül-çiçəyi və bolsulu bulaqları arıçılıq üçün çox əlverişlidir. Bu da kənddə arıçılıq təsərrüfatlarını genişləndirməyə imkan verir. Kənd sakinlərindən Vidadi Hacıyev, Füzuli Quliyev, Elxan Musayev, Telman Sadiqov və başqaları həmin gəlirli sahəni özlərinin daimi iş yerinə çeviriblər. Arıçılıqla məşğul olan təsərrüfat adamları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlərdən bəhrələnərək var-qüvvələri ilə çalışır, əldə etdikləri qazancla öz ailələrinin gün-güzəranını daha da yaxşılaşdırırlar.

Ərəfsədə bağçılığa da önəm verən təsərrüfat adamları az deyil. Kənd sakinlərindən Adil Qələndərov və Nadir Əliyevin həyətyanı sahələrində saldıqları müxtəlif meyvə bağları göz oxşayır.

Bu yaşayış məntəqəsində bir sıra meyvələrlə yanaşı, cəviz ağacları diqqəti daha çox cəlb edir. Dağ yamaclarına tala-tala, topa-topa səpələnən cəviz ağacları kəndə xüsusi gözəllik bəxş edir. Dünyagörmüş ağsaqqallardan yaşı səksəni haqlamış Nəcəf Qələndərovla söhbət zamanı bildirdi ki, kənddə bu meyvəni yetişdirməyə maraq ildən-ilə artır. Çünki becərilməsi çox zəhmət tələb etmir və xeyli gəlirlidir.

Ərəfsə həm də öz Xəzinədərə və Gədik adlı meşələri ilə diqqəti cəlb edir. Meşəbəyi Cavad Cavadov vurğulayır ki, meşə təbiətin möcüzəsi, könül xoşluğudur. Meşə iqlimi tənzim edən, havanı təmizləyən, saflaşdıran bir dünyadır. Meşə yaşıllıqdır, məğrurluqdur, zümzüməsi kəsilməyən mahnı, heç vaxt söylənməmiş nağıl, su mənbəyi, sağlamlıqdır.

Meşəbəyi Cavad Cavadov onu da əlavə etdi ki, Xəzinədərə və Gədik meşələrində bu yer üçün xarakterik olan palıd ağacları çoxluq təşkil edir. Xatırladaq ki, 1990-cı illərin şaxtalı qış günlərində, qaz və işığın olmadığı çətin zamanlarda belə, ərəfsəlilər meşələri göz bəbəyi kimi qoruyub saxlaya biliblər.

Ucqar dağ kəndi Ərəfsədə gördüklərimiz qəlbimizi qürur hissi ilə doldurdu. Sevinirik ki, göstərilən dövlət qayğısının nəticəsində başqa kəndlərimiz kimi, bu yaşayış məntəqəsi də müasir Azərbaycan kəndinə çevrilib, insanların yaşayış tərzi yüksəlib.

**Ədalət CƏFƏROĞLU**

Təhsil millətin gələcəyidir

# Ulu öndərin adına layiq uğurlar qazanan təhsil ocağı

## *Ümummilli liderin arzularının gerçəkləşdiyi məktəbdə 15 ildir ki, bilikli və vətənpərvər gənclik yetişdirilir*

***Ümummilli liderimiz Heydər Əliyev deyirdi: “Bizim təhsilimiz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Ona görə də Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir”.***

Naxçıvan şəhərindəki Heydər Əliyev adına məktəb də təhsilimizin böyük himayədarı ulu öndərin təşəbbüsü ilə yaradılıb və bu, görkəmli dövlət xadiminin ölkə təhsilində xüsusi çəkisi olan Naxçıvanda həmin strateji sahəyə qayğısının daha bir ifadəsi idi. 2004-cü ildə məktəb üçün müasir arxitektura üslubunda yeni bina inşa edilib, təhsil ocağı informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub.

Həmin il sentyabr ayının 2-də naxçıvanlıların daha çox üçüncü mikrorayon kimi tanıdıqları Babək məhəlləsində məktəb binasının istifadəyə verilməsi təkcə Naxçıvanın təhsil ictimaiyyətinin, şəhər əhalisinin deyil, bütün muxtar respublika sakinlərinin sevincinə çevrilib. Çünki açılış mərasimində ulu öndərin siyasətini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev iştirak edirdi. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, ümummilli liderimizin təşəbbüsü ilə tikilən və həm də onun adına ucaldılan bir abidənin açılışı idi. Açılış mərasimində iştirak edən dövlət başçısı deyib: ***“Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb.***







***Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun”.***

Ölkə başçısının həmin sözlərini 15 ildir ki, pedaqoji kollektiv özünün fəaliyyət proqramına çevirib. Bu səbəbdəndir ki, hər tədris ili yüksək nəticələrlə başa çatır. İlk ən böyük nəticə isə məktəbin 2007-2008-ci tədris ilinin yekununa görə, ölkəmizdə “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmasıdır. Heydər Əliyev adına tam orta məktəbi muxtar respublikada digər təhsil ocaqları üçün bir nümunə səviyyəsinə çatmış, tədrisin və təlim-tərbiyə prosesinin təşkilində burada əldə olunmuş təcrübənin geniş şəkildə yayılması üçün ciddi əsaslar yaratmışdı. Elə buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında” 2014-cü il 21 avqust tarixli Sərəncam imzalayıb. Sərəncama əsasən həmin il oktyabr ayının 22-də məktəbin 10 illiyi təntənəli şəkildə qeyd edilib.

Yubiley mərasimindəki çıxışında ***“Vətənpərvər gənclik dövlətin gücü və onun əsas dayağıdır. Bu gün Heydər Əliyev adına tam orta məktəbdə təhsil alan şagirdlərə, məktəbi bitirən məzunlara baxarkən qürur duyuruq. Fəxr edirik ki, gənclərimiz sabahımızın təminatçısı kimi yetişir, Vətənə, Azərbaycançılıq idealına sadiqlik ruhunda tərbiyə olunurlar”***, – deyən Ali Məclisin Sədri bu yolda məktəbin müəllim və şagirdlərinə uğurlar arzulayıb.

Dörd mərtəbədən ibarət olan məktəbdə 60 sinif otağı, 5 elektron lövhəli sinif, 3 kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və müəllimlər otaqları, emalatxana və idman zalı vardır. Yeni dərs ilinə hazırlıq işlərinin gedişi ilə bağlı məlumat almaq üçün məktəbdə olarkən öyrəndik ki, hazırda 1150 şagirdin oxuduğu bu təhsil ocağında 105 müəllim çalışır.

Sinif otaqları və fənn kabinələrində yaradılan şərait dərslərdə əyaniliyin təmin olunmasına, şagirdlərin ən yüksək səviyyədə təhsil almasına, Azərbaycançılıq ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən gənc kimi yetişməsinə imkan verir.

Məktəbin kompüter otaqlarında 57 kompüter dəsti quraşdırılıb, internetə çıxış təmin olunub. Həmçinin elektron lövhəli siniflərdə və laboratoriyalarda da müasir tədris imkanları yaradılıb, elektron dərsliklər və əyani vəsaitlərlə təminat yüksək səviyyədə təşkil edilib. Məktəb zəngin kitabxana fonduna malikdir.

Məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Namiq Məmmədovla söhbətimizdə bir qədər əvvəlki illərə qayıtdıq. Müsahibim bildirdi ki, Azərbaycan təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoyması ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində mümkün olub. Təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirən ölkə rəhbərinin belə diqqət və qayğısının bəhrələrini muxtar respublikamızın timsalında da görmək olar. Belə ki, son illər qədim diyarımızda 200-dən artıq təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Həyata keçirilən tədbirlər məzunların buraxılış və ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaradıb. Məktəblərimiz müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunub.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli və mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər. Bütün bunlar təhsildə qazanılan uğurların təməlində dayanan amillərdir. Bizim məktəbin kollektivi də bu imkanlardan səmərəli istifadə etməyə səy göstərir.

Məktəbin tədris işləri üzrə direktor müavini Həsən Həsənov deyir ki, 15 ildir, məktəbin kollektivi təhsil ocağında ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyələrini əldə rəhbər tutaraq milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər, müstəqilliyimizin keşiyində dura biləcək gənclər yetişdirilməsi istiqamətində bütün imkanlarını səfərbər edir. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına, Onun ideyalarına layiq olmalıdır. 15 il ərzində buranı yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, “Qızıl” və “Gümüş” medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldurlar. Məktəbin şagirdlərindən birinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na salınıb.

Təhsil ocağının qazandığı uğurlar belə deməyə əsas verir ki, pedaqoji kollektiv məsuliyyətini dərindən dərk edir, işini dahi rəhbərin adına layiq səviyyədə qurmağa səy göstərir. Elə bu səbəbdəndir ki, Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında layiqli yerini qorumaqdadır.

Məzunlar 2018-2019-cu tədris ilində də məktəbin tarixinə yeni uğurlar yazıblar. Qəbul imtahanlarının nəticələri xeyli sevindiricidir. Belə ki, 63 məzunun 57-si ali məktəblərə qəbul olunub. Onlardan 4-ü Türkiyə Respublikasında təhsillərini davam etdirəcək. Abituriyentlərin 8-i 500-600, 7-si 600-700 intervalında bal toplayıb. Məktəbi “Qızıl” və “Gümüş” medalla bitirmiş 4 məzun göstərilən etimadı yüksək səviyyədə doğruldub.

Azərbaycan Respublikasının Əməkdar müəllimi Şəfiqə Əhmədova məktəblilərin müxtəlif yarışlarda iştirakından, qazandıqları uğurlardan danışır:

– 2011-2019-cu illər ərzində 20-yə yaxın şagirdimiz ölkə üzrə keçirilən fənn olimpiadalarının qalibi olub, Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanlarını alıb. Bu il ölkə üzrə ən yüksək bal toplayan məzunlarımızdan biri olan Abdulla Axundzadə respublika fənn olimpiadasında (fizika) ikinci yerə sahib çıxıb. Abdulla ilə həmsöhbət olduq:

– Bütün abituriyentlər yüksək bal toplamaq, ali məktəb tələbəsi adını qazanmaq arzusunda olur. Onların hamısı uğurlu nəticə əldə edərək həm ailəsini, müəllimlərini sevindirmək, həm də istədikləri təhsil ocağında seçdikləri ixtisasda təhsil almaq istəyir. Lakin abituriyent bu sevinci, sadəcə, yaxşı çalışaraq yaşaya bilər. Mən də arzuma bu yolla çatdım, ali məktəblərə qəbul imtahanlarında 674 bal toplamağa müvəffəq oldum. Bu böyük uğura nail olmağımda təhsil aldığım Heydər Əliyev adına tam orta məktəbdə bizə elmin sirlərini öyrədən müəllimlərin əməyi əvəzsizdir. Ali məktəblərə qəbulda yüksək nəticələr göstərən bütün sinif yoldaşlarım adından onlara minnətdarlığımı bildirir, bizə göstərilən etimadı doğruldacağımıza söz verirəm.

Abdullanın valideyni Elxan Axundzadə kollektivin fəaliyyətindən razılıqla danışır:

– Övladlarım orta təhsillərini bu məktəbdə aldıqlarından bu nümunəvi tədris ocağı ilə həmişə sıx əlaqə saxlayıram. Onu da xüsusi qeyd etmək istəyirəm ki, Heydər Əliyev adına tam orta məktəbdə güclü təhsil ənənələri yaradılıb. Hər il birinci sinfə qəbul edilən və orta təhsillərini başa vuran məzunlar məktəbin həyatında ulu öndər Heydər Əliyevin büstü önündə görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol ilə gedəcəklərinə and içirlər. Ali məktəblərdə təhsil alan tələbələrlə kollektivin görüşlərinin təşkil olunması da bir ənənə şəklini alıb. Bu və digər belə tədbirlər şagirdlərdə elmə, təhsilə marağı daha da artırır. O da vurğulanmalıdır ki, məktəb təkcə savadlı məzun yetişdirməklə öz vəzifəsini bitmiş hesab etmir, məzunların dövlətçiliyimizə, müstəqilliyimizə, tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşmasına çalışır.

Yüksək bal toplayan məzunlardan Lalə Abdullayeva da sevincini bizimlə bölüşdü:

– Çəkdiyim zəhmət bəhrəsiz qalmadı. Mənə tələbə sevinci yaşadan müəllimlərimə minnətdaram.

Ali məktəblərə qəbulda uğurlu nəticəsi ilə seçilən daha bir məzun Nurgül Hüseynova deyir ki, on bir il bizim əziyyətimizi çəkən müəllimlərimizə həmişə minnətdar olmalıyıq. Onlar bizim yaxşı təhsil almağımız üçün çalışan ən fədakar insanlardır. Müəllimlərimizin zəhməti qarşısında baş əyir, ali məktəbdə də yaxşı təhsil almaq üçün ciddi çalışacağıma söz verirəm.

Yeri gəlmişkən onu da qeyd edək ki, məktəbin pedaqoji kollektivinin əməyi də layiqincə qiymətləndirilib. Belə ki, təhsil ocağının 5 müəllimi Azərbaycan Respublikasının, 4 müəllimi Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllim”i fəxri adlarına layiq görülüb, 4 müəllimi “Tərəqqi” medalı ilə təltif edilib, 1 müəllimi isə “İlin ən yaxşı müəllimi” müsabiqəsinin qalibi olub.

*Ulu öndərimiz Heydər Əliyev deyirdi:* ***“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”.*** *Heydər Əliyev adına tam orta məktəbin kollektivi görkəmli dövlət xadiminin bu tövsiyəsini əldə rəhbər tutaraq qazandığı nailiyyətləri son həddi hesab etmir. Yaradılan şərait, göstərilən diqqət və qayğı müqabilində rekord uğura nail olmaq əzmi ilə çalışır. Məktəbin uğuru isə cəmiyyətin uğurudur.*

**Muxtar MƏMMƏDOV**

# Məktəbə hazırlıq qruplarında tədris aparan müəllimlər üçün seminara start verilib

*Ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarında tədris aparacaq müəllimlər üçün üçgünlük elmi-metodik seminara start verilib.*



Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə təşkil edilən seminarda Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək bildirib ki, muxtar respublikada bu sahəyə göstərilən dövlət qayğısı nəticəsində təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, dərs vəsaitləri, dərslik və bədii ədəbiyyat, informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunması diqqət mərkəzindədir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 22 avqust tarixli Qərarı ilə ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupları yaradılıb. Həmin qərarın muxtar respublikada tətbiq edilməsi gələcək birinci sinif şagirdlərinin hazırlıq səviyyələrinin yüksəlməsinə öz töhfəsini verir.

Şəhər və rayon Təhsil şöbələrinin qabaqcıl ibtidai sinif müəllimləri tərəfindən tədris olunan təlim kurslarında tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına, metodik sahədə təkliflərin verilməsinə, ayrı-ayrı mövzular ətrafında təhlillərin təşkilinə dair qabaqcıl təcrübənin öyrənilməsi həyata keçirilir.

Tədbirdə müəllimlərin rəy və təklifləri nəzərə alınır, sualları cavablandırılır.

Qeyd edək ki, Naxçıvan şəhərində seminarı Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova aparıb. Seminar zamanı məktəbəhazırlıq qruplarında şagirdlərin fiziki hazırlığının inkişaf etdirilməsi, onlarda şəxsiyyətyönümlü hazırlığın formalaşdırılması, beşyaşlı uşaqlarda əqli qabiliyyətin və nitqin inkişaf xüsusiyyətləri, didaktik oyunların uşaqların inkişafında rolu, şagirdlərin estetik və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi və digər məsələlər haqqında məlumat verilib.

Həmin gün muxtar respublikanın rayonlarında da üçgünlük təlimə başlanılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Bu qoca dünyanın şahidiyəm mən...

***Çinar ağacları nədənsə xüsusi diqqətimi çəkir. Bilmirəm, minlərlə il yaşamasına, hündür və əzəmətli olmasına, yoxsa özünəməxsus formada olan yarpaqlarına görəmi? Çinarı, adətən, dözüm, uzunömürlülük rəmzi kimi dəyərləndirirlər. Mən isə “xatirələr ağacı” adlandırıram çinarı. Qocaman çinar ağacı kölgəsi ilə, sadəcə, insana sərinlik və rahatlıq bəxş etmir. Bu kölgə məni həm də dərin xatirələrə qərq edir.***



Elə xoşlayıram ki, çinar altında saatlarla oturub xəyala dalmağı. Bir azdan yarpaq tökümü başlayacaq, bu qoca çinarın yarpaqları da həzin-həzin süzülərək ana torpağın qoynuna pənah aparacaq. Həyat da belə deyilmi?! Ulu Yaradanın verdiyi ömür ağacımızdan neçə-neçə yarpaqlar qopub düşür, nələrisə itiririk. Amma ümidimizi itirmirik, saralan yarpaqların yerində yamyaşıl yeni ümidlər cücərir. Elə çinarın yarpaqları kimi. Onun da üzərindəki damarlarda sanki bir “ümid” axır – mənim yerimə yenisi gələcək deyə. Ötən payız qucaqlaşıb pıçıldaşan xəzəl səsini baharda yaşıl yarpaqlardan zövq alan quşların səsi əvəz etdiyi kimi.

Min illərin yorğunluğunu üzərində saxlayan qoca çinar nə qədər dözümlü olsa da, onun yarpaqları çox kövrəkdir. Bəlkə də, elə çinarın qocaldığını görüb bir azdan saralıb-solacaq, sonda sərt budaqlardan ayrılaraq quru xəzələ çevriləcək. Bəli, min illər boyunca qocaman çinar yerində qalır, dəyişən isə hər il təzələnən yarpaqlar və yaşlaşdıqca onun bağrına iz salan qırışlar olur. Hə, bir də çinarın canlı şahidi olduğu dövr və insanlar dəyişir. Xalq şairi Səməd Vurğunun təbirincə desək:

*Bu qoca dünyanın şahidiyəm mən...*
*Kölgəmdə dincəlir hər gəlib-gedən.*
*Bağçalar gül açır yaş torpağımda,*
*Quşların adı var hər yarpağımda.*

Elmi mənbələrdə “Platanus orientalis” kimi tanınan çinar muxtar respublikamızın bir çox bölgəsində yayılıb. Lakin uzunömürlü çinarlara daha çox Ordubad rayonu ərazisində rast gəlinir. Buna görə də çinarı Ordubadın rəmzlərindən biri hesab edirlər. Bu ağacın gövdəsinin diametri 12 metrə qədər böyüyə bilir. Əzəmət və ucalıq rəmzi hesab edilən çinarların hündürlüyü isə 25-30, bəzi hallarda 50 metrə çatır.

Rayon mərkəzinə daxil olan kimi yolun üzərindəki çinarlar diqqəti cəlb edir. Ordubad şəhərində hansı səmtə, hansı küçəyə yolumuz düşdüsə, mütləq çinarlarla rastlaşdıq. İnsanların ilin isti aylarında kölgəsinə sığındığı bu çinarlar xüsusi mühafizə olunur. Hələ şəhər mərkəzindəki daha böyük çinar isə tamamilə başqa bir aləmdir. Kim bilir, onun kölgəsində neçə nəsillər dincəlib. Bu yurda gələn hər kəs qocaman çinarların kölgəsini mütləq ziyarət edir. Şəhərin mənzərəsi illərboyu dəyişib müasirləşsə də, çinar min il önçəki görkəmini itirməyib, elə yerində qalıb...

Əslində, düşüncələr də dəyişməyib. Bu gün də şəhər camaatı və qonaqlar bu çinarın altında Ordubadın xoş ətirli çayının dadına baxır. Bu şəhərə gəldinsə, çinarın altında Ordubad limonu ilə pürrəngi çaydan mütləq içməlisən. Elə biz də Ordubad sakinlərinin xoş söhbəti əhatəsində pürrəngi çaya qonaq olub Ordubad limonunun xoş ətrindən, bir də çinarın kölgəsindən xüsusi zövq aldıq.

Sakinlərlə söhbətimiz zamanı şəhərin ağsaqqallarından Südeyif Hacıyev bildirdi ki, qədimdən bəri bu diyarda çinar ağacları dəyərli, mənəvi sərvət hesab olunub, bu gün də müqəddəs sayılır. Ata-babalarımızdan bizə mirasdır. Çinara toxunmazlar, onu kəsməzlər. Görünür ki, bu dünyagörmüş nurani tariximizi də yaxşı bilir. O, söhbət əsnasında XX əsrin əvvəllərində Naxçıvanı ziyarət etmiş Nefodov adlı səyyahın fikirlərini bizə olduğu kimi təqdim etdi: “Ordubad öz daş-qaşı ilə parıldayan gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir”.

Südeyif müəllim bildirdi ki, Ordubadda hər bir məhəllənin öz meydanı, məscidi, çarhovuzu, çeşməsi və hamamı ilə yanaşı, çinar ağacları da vardır. Bu gün də Azərbaycanın incisi Ordubadın qədim məhəllələrinə getdikdə eyni mənzərənin şahidi olursan.

Həmsöhbətimə çinar ömrü arzulayıb çox gözəl təəssürat aldığımız çay süfrəsinin ardınca qonağımla Azərbaycan incisinin qədim məhəllələrini gəzməyi qərara aldıq. Taqqılbablı və zəncirbablı qədim qapıları, möhrə palçıqdan ucaldılmış hasarları və qədim tikililəri ilə dar küçələr bizi həm də tarixi keçmişimizə apardı sanki. O keçmişə ki, çinarlar anbaan o dövrlərə şahidlik edib, xanların, bəylərin səltənətini, müharibələrin bu məhəllələrdə toz qaldıran gurhagurunu, atları şahə qalxan igidlərin nərəsini görüb.



Ordubad şəhərinin qədim məhəllələrindən biri olan məşhur Sərşəhərə çatdıq. Hər il bu qədim meydanda, bu çinarın kölgəsində el şənlikləri, bayram tədbirləri qeyd olunur. Əgər Sərşəhərdə olmusunuzsa, buradakı çinarın yanındakı gursulu kəhrizi də, yəqin ki, görmüsünüz. Ovcumu bir neçə dəfə doldurub onun saf suyundan içdim. Qoca çinar məni yenə də xəyala apardı...

*...Başımda oynamış min boranlı qış,*
*Sanma ki, qüdrətim, gücüm qalmamış.*
*Bax, ayrılmamışam öz kötüyümdən!*
*Qəhrəman bir elin timsalıyam mən...*

Neçə-neçə nəsilləri qarşılayıb yola salan bu qocaman ağacın gövdəsinin yarıqlarından hiss edirdim ki, sanki o, yorulub əldən düşüb. Bəlkə də, onun düz dibində çağlayan kəhrizin bumbuz suyu qocaman çinara həyat verir, ona hələ çox bayramlar qarşılayacaqsan, – deyir...

Buradakı çinar, kəhriz və qədim məscid binası bir-birini tamamlayan, ayrılmaz üçlük təşkil edir. Uzun illərin tarixinə şahidlik edən bu dəyərli incilərin biri yerində olmazsa, sanki bu məhəllə də dəyərini, əhəmiyyətini itirəcək.

Qoca çinar, kimlərin ömür yoluna, sevincinə, kədərinə şahidlik etməmisən ki? İkinci Dünya müharibəsində qazandığımız tarixi qələbəyə öz ixtirası ilə mühüm töhfə verən akademik Yusif Məmmədəliyevimi deyim? Yoxsa sənin kölgəndə maarifçilik ideyaları ilə mövhumata, cahilliyə sillə vuran, onlarla ziyalı yetirən Məhəmməd Tağı Sidqinimi? Sən öz kölgəndə Məmməd Səid Ordubadi kimi yüzlərlə ziyalı, ədib, alim, ictimai xadim yetirmisən. Bəli, bu diyarın insanları da çinarlartək uzunömürlüdür. Yüz illər keçsə belə, yaşayır, xatırlanır.

Əbəs yerə deyil ki, uzunömürlü insanları çinar ömürlü insan da adlandırırlar. Çünki qocaman çinar ağacı 1000-1500 il ömür sürür. Lakin çinar ömrü yaşamaq, sadəcə, uzunömürlülüklə hesablanmır. Bu ömrü mənalı yaşamaq, cəmiyyətə xeyir vermək, həyatda iz qoyub getmək əsl çinar ömrüdür. Məhz bu əməllər çinar taleyi ilə eyni deyilmi? Əsrlər boyunca insanları kölgəsində dincəldən, yarpaqları ilə şəfa, yaşıllığı ilə ekologiyaya tarazlıq bəxş edən qocaman çinarlar.

Deyirlər, bir ağac əksən, gələcəkdə onun barından nəvə-nəticələrin, səni tanımayanlar yeyər. Bar gətirməsə də, təbiətə gözəllik, insana sağlamlıq bəxş edən çinarları qorumaq, onların sayını artırmaq hər kəsin borcudur. Çünki bu ağac bir neçə on illiyin deyil, min illiyin tarixini özündə yaşatmaq qüdrətindədir. Bu gün əkdiyiniz bir ağac, növbəti min illiyə töhfədir.

Muxtar respublikada çinar əkini bir çox ərazidə aparılıb. Təkcə Naxçıvan-Batabat magistralına nəzər salmaq kifayətdir. O tərəfə yolunuz düşərsə, ətrafa diqqətlə tamaşa edin. Yolboyu bizi izləyən yeni çinar tinglərinin gözəlliyini seyr etməyə dəyər. İnsanın qəlbinə xoş bir hiss, çöhrəsinə təbəssüm bəxş edir. Bir düşünün, onların hər biri yüzlərlə, minlərlə il ömür yaşayacaq və qıvrıla-qıvrıla irəliləyən yolları, sanki mühafizə edirmişcəsinə qoynuna alacaq. İstər yaz aylarında yaşıl donu, istərsə də payızda xəzanı ilə tamam başqa aləm yaradacaq bu ərazilərdə. Bu fidanları əkən insanlar gələcək nəsillərə töhfə verirlər və yaşı min illərlə ölçülən bu ağaclar gələcəkdə onu əkən insanlara “Çinar ömrü” bəxş edəcəklər...

*Qoca çinar... Salamat qal. Biz yenə də ayrılırıq. Bilirəm, çox ayrılıqlar görmüsən. Neçə-neçə nəsillər yola salmısan. Amma sən dözümlü, dayanətlisən. Hələ neçə yüz illər də yaşayacaqsan! Yaşa və doğma diyarımızın necə dəyişib inkişaf etdiyinə şahidlik et... Bəli, mən indi getməliyəm. Amma yenə ziyarətinə gələcəyəm. Bu dəfə sənin hər anına bələd olduğun Ordubadın qədim məhəllələrindən bəhs etmək üçün...*

**✍ Gülcamal TAHİROVA**

*Dünən Naxçıvan Dövlət Filarmoniyasında Azərbaycan Respublikasının Xalq artisti, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin bədii rəhbər-dirijoru Çingiz Axundovun 60 illik yubileyi münasibətilə tədbir keçirilib.*

# Xalq artistinin yubileyi qeyd olunub



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova açaraq mədəniyyətimizin və incəsənətimizin inkişafına göstərilən dövlət qayğısından danışıb.

Diqqətə çatdırılıb ki, bu gün yubileyi qeyd olunan tanınmış sənətkar Çingiz Axundov konsert proqramlarındakı mahir dirijorluğu ilə musiqisevərlərin rəğbətini qazanıb. Əvvəlcə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında və Azərbaycan Dövlət Filarmoniyasında çalışan dirijor 1985-ci ildən sənət fəaliyyətini Naxçıvan Dövlət Filarmoniyası ilə bağlayıb. Çingiz Axundova nəfəs alətləri üçün işlədiyi metodik vəsaitlərə və dərslərə görə dosent elmi adı verilib. O, “Koroğlu” operasının kompozisiyasını hazırlayıb, “Leyli və Məcnun” operasının kompozisiyasının hazırlanması və təqdimatında fəal iştirak edib.

Vurğulanıb ki, bu gün Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri Çingiz Axundovun bədii rəhbər-dirijorluğu ilə təkcə muxtar respublikada deyil, ölkəmizin musiqi kollektivləri içərisində də tanınmaqdadır.

Çingiz Axundovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının, 2007-ci ildə Azərbaycan Respublikasının “Əməkdar artisti”, 2009-cu ildə isə “Azərbaycan Respublikasının Xalq artisti” fəxri adlarına layiq görülüb.

Mədəniyyət naziri Çingiz Axundovu yubiley münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə yubilyarın sənət dostları çıxış edərək ürək sözlərini bildiriblər.

Sonra Çingiz Axundov əməyinə və yaradıcılığına yüksək qiymət verildiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib, bundan sonra da musiqi mədəniyyətimizin inkişafı üçün çalışacağını deyib.

Sonda Naxçıvan Dövlət Filarmoniyasının Simli Kvartetinin ifasında musiqi nömrələri səsləndirilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Elan

12 sentyabr 2019-cu il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Səhiyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən səhiyyə işçiləri üçün əmək yarmarkası keçiriləcəkdir. İşaxtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

*Ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 120.*

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binası.*

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti kənd xidmət mərkəzlərində mövcud olan vakansiyaların kadrlarla təmin edilməsi üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər-manikürçü peşəsi üzrə kurs təşkil edir. Kursda tədrisin müddəti 3 aydır. Tələbat aşağıdakı kimidir:

| Kənd xidmət mərkəzlərinin adı | Qadın gözəllik salonu üzrə vakant yerlər |
|---|---|
| ***Şərur rayonu üzrə*** | |
| Dəmirçi | 1 |
| Cəlilkənd | 1 |
| Kürkənd | 1 |
| Yengicə | 2 |
| Çomaxtur | 1 |
| Qarxun | 1 |
| Muğancıq Mehrab | 1 |
| Danyeri | 1 |
| Xanlıqlar | 1 |
| Arpaçay | 1 |
| Qarahəsənli | 1 |
| ***Babək rayonu üzrə*** | |
| Payız | 1 |
| ***Ordubad rayonu üzrə*** | |
| Yuxarı Əylis | 1 |
| ***Culfa rayonu üzrə*** | |
| Ləkətağ | 1 |
| Teyvaz | 1 |
| Dizə | 1 |
| ***Kəngərli rayonu üzrə*** | |
| Xok | 1 |
| **Cəmi:** | **18** |

Kursu müvəffəqiyyətlə bitirənlər qeyd edilən vakansiyalar üzrə işlə təmin olunacaqlar. Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

**Əlaqə telefonu: 545-32-33**

## İtmişdir

Salmanov Əbülfəz Sənan oğlunun adına 2018-ci ildə “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Əliyeva Aygün Həbib qızının adına olan 9152 inventar nömrəli texniki pasport və 01/94 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

“Buta” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus traktorun AZ-185FX479 nömrəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 586